# Xatirəsi əziz tutulan müəllim



Həyatını müqəddəs müəllimlik peşəsinə bağlayan və ömrünün sonuna qədər bu şərəfli peşədə çalışan bir insan haqqında söhbət açmaq istəyirəm. Ömrünün 44 ildən artıq bir dövrünü şagirdlərin təlim-tərbiyəsinə həsr edən bu insan Qusar rayonu Düztahir kəndinin ilk müəllimlərindən olan Fətulla Feyzulla oğlu Fətullayevdir. Ötən əsrin 50-ci illərində doğulduğu kənddəki məktəbdə dil və ədəbiyyat müəllimi kimi fəaliyyətə başlayıb. Böyük Vətən müharibəsinin iştirakçısı olub. O, fəal müəllim ömrü yaşayıb. Minlərlə yeniyetmə və gəncin taleyinə işıq saçıb. O, qayğıkeş müəllim kimi sevildi, ucaldı, hamının hörmətini qazandı. Elə bunun nəticəsidir ki, Fətulla müəllimə bəslənən şagird məhəbbəti, sevgisi bu gün də qalmaqdadır. Fətulla Fətullayev bu gün aramızda olmasa da gözəl insan, gözəl müəllim, əvəzolunmaz dost və el ağsaqqalı kimi həmişə Düztahir kəndinin sakinlərinin və müəllimlərin qəlbində yaşayacaq.

F.Fətullayev 1916-cı il martın 14-də Qusar rayonu Düztahir kəndində anadan olub. Düztahir kənd orta məktəbini bitirib, 1933-cü ildə Qusar pedaqoji məktəbinə daxil olub. 1935-ci ildə isə pedaqoji məktəbi bitirib. 1935-1936-cı dərs ilində Azərbaycan SSR Maarif Nazirliyinin əmri ilə Qusar rayon Düztahir kənd orta məktəbinə müəllim təyin olunub. 1937-ci ildə Azərbaycan Qiyabi Pedaqoji İnstitutuna qəbul olunaraq dil-ədəbiyyat şöbəsini bitirib. 1975-ci ildə qələbənin 30 illik yubileyi ilə əlaqədar Fətullayev Fətulla Feyzulla oğlu SSRİ müdafiə nazirinin əmri ilə “Böyük Vətən Müharibəsi” ordeni ilə təltif olunub. Bundan başqa, o, 6 may 1975-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə “Əmək veteranı” medalı ilə təltif olunmuşdur.

F.Fətullayev 1941-ci ildə Böyük Vətən müharibəsi illərində Sovet Ordusuna çağırılır. Onun döyüş yolu Mozdokdan Ukrayna, Belarus, Polşanın Varşava şəhərinədək uzanır və 1944-cü ildə Varşava uğrunda gedən döyüşlərin birində ağır yaralanaraq 2-ci qrup əlillik dərəcəsi almış, fəaliyyətini arxa cəbhədə davam etdirmişdir. Müharibəyə həsr olunmuş 10-a yaxın kitabın müəllifidir.

1948-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU-nun) qiyabi şöbəsinə daxil olub və həmin institutu müvəffəqiyyətlə bitirmişdir. Fətulla müəllim 1984-cü ildə 68 yaşında dünyasını dəyişib.

Fətulla müəllim gözəl insan, vətənpərvər olmaqla yanaşı yaxşı bir ailə başçısı idi. 3 oğlu, 2 qızı vardır. Oğlanlarından Fəxrəddin atasının yolunu davam etdirərək Düztahir kənd orta məktəbində tərbiyə işləri üzrə direktor müavinidir. Feyzulla isə Qarabağ müharibəsi iştirakçısı, II qrup əlilidir.

Fətulla müəllimin şagirdləri hazırda respublikamızın nüfuzlu təhsil ocaqlarında, müxtəlif nazirliklərdə, təhsil, mədəniyyət, elm, kənd təsərrüfatı, maşınqayırma, neft sənayesi və digər sahələrdə çalışırlar. Ən böyük mənəvi mükafatı onun yetişdirdiyi yüzlərlə şagirdinin müəlliminə olan dərin məhəbbəti, bu məhəbbəti ifadə edən baxışlardan süzülüb gələn minnətdarlıq hissləridir. Fətulla müəllimin martın 14-də anadan olmasının 100 illiyi tamam olub. Kənd məktəbində onun yubileyi keçirilib. Yubiley tədbirində Fətulla müəllimin şagirdləri, yaxınları iştirak ediblər.

**Əbülfət RAMAZANOV,**
*Qusar rayonu Düztahir kənd orta məktəbinin müəllimi*